**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FOLKLOR İNSTİTUTU**

---

*Əlyazması hüququnda*

**TAHİR MUSA OĞLU RZAYEV**

# MÜASİR AZƏRBAYCAN NƏSRİNDƏ EPOS ƏNƏNƏSİ (İSMAYIL ŞIXLININ DƏLİ KÜR ROMANI ƏSASINDA)

**5719.01 – Folklorşünaslıq**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**B A K I – 2013**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun “Folklor və yazılı ədəbiyyat” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Muxtar Kazım oğlu İmanov**
filologiya üzrə elmlər doktoru

**Rəsmi opponentlər**: **Məhərrəm Paşa oğlu Qasımlı**
filologiya üzrə elmlər doktoru, professor

**Ramazan Oruc oğlu Qafarlı**
filologiya üzrə elmlər doktoru, dosent

**Aparıcı müəssisə**: Bakı Dövlət Universitetinin “Azərbaycan şifahi xalq ədəbiyyatı” kafedrası

Müdafiə “_29_”_11__2013-cü ildə saat _____ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən FD 01.201 Dissertasiya Şurasının iclasında olacaqdır.
**Ünvan**: Az1001, Bakı, İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31
Dissertasiya ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.
Avtoreferat “_____” _______________ 2013-cü il tarixdə göndərilmişdir.

**FD 01.201 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə fəlsəfə doktoru, dosent:** **Afaq Xürrəm qızı Ramazanova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan nəsrində epos ənənəsi probleminin tədqiqat aktuallığı təkcə Azərbaycan folklorşünaslığının hər gün daha yeni keyfiyyət parametrləri kəsb edən nəzəri-metodoloji səviyyəsi ilə deyil, həm də ümumən Azərbaycan cəmiyyətinin bir etnik-mədəni toplum kimi milli düşüncəsinin yönləndiyi, inteqrasiya olunduğu qlobal-bəşəri proseslərlə şərtlənir. Öz varlığını yaşatmaq, universallaşma prosesində millilikdən məhrum kosmopolit kütləyə çevrilməmək hər bir toplumdan öz milli-mənəvi potensiyasını aktuallaşdırmağı tələb edir. Milli epos milli-mənəvi potensiyanın bütün tarixi enerjisini özündə qoruyan, yaşadan bədii sistemdir. Bu cəhətdən milli epos dünən rus-çar imperiyası, daha sonra SSRİ imperiyası tərkibində öz varlığını yaşatmaq istəyən Azərbaycan xalqının milli kimliyinin enerjetik qaynağı olduğu kimi, bu gün də milli dəyərləri sürətlə əridən qloballaşma prosesində Azərbaycan milli varlığının əsas qoruyucu sistemlərindən olan ədəbiyyatın enerji qaynağı olaraq qalır. Müasir Azərbaycan romanları dünən olduğu kimi, bu gün də poetik strukturunun bütün funksional dinamikası ilə həm də milli epos ənənələrinə bağlıdır. Bu da öz növbəsində müasir Azərbaycan ədəbiyyatında, o cümlədən nəsrində epos ənənəsi problemini folklorşünalıq və filologiyanın aktual mövzularından birinə çevirir.

Müasir Azərbaycan nəsrində epos ənənəsinin parlaq ifadə olunduğu nəsr örnəklərindən biri görkəmli Azərbaycan yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanıdır. Ümumiyyətlə, hər bir bədii yaradıcılıq onun arxasında duran müəllif subyektinin davamı olduğu kimi, "Dəli Kür" romanı da İsmayıl Şıxlı şəxsiyyəti və bu şəxsiyyətdə təcəssüm olunan milli düşüncə ənənələrinin, o cümlədən epos ənənəsinin davamıdır. Subyektin şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayan ideya-estetik baza onun yaradıcılığında da öz ifadəsini tapır. İsmayıl Şıxlı şəxsiyyəti üçün belə bir baza folklordur. İsmayıl Şıxlı fenomeninin əsasında dayanan, onun böyüklüyünü şərtləndirən ən mühüm amillərdən biri, bəlkə də, birincisi onun folklora, xalq müdrikliyinə bağlılığı olmuşdur. Zəngin folklor potensialı onun həm şəxsiyyətinin, həm də bədii və publisistik

yaradıcılığının əsasında dayanmışdır. Odur ki, İsmayıl Şıxlının folklorla əlaqələrinin müxtəlif aspektlərini nəzərdən keçirmək elmi baxımdan əhəmiyyətlidir. Bu əlaqələrin parlaq örnəyi "Dəli Kür" romanıdır. "Dəli Kür" yaxın tarixi keçmişimizin mürəkkəb ictimai-siyasi hadisələri fonunda fərd-fərd və fərd-cəmiyyət münasibətlərini tənzimləyən folklor modellərinə, onun daşıyıcısı olan şəxslərin yeni şəraitdə tarixi taleyinə həsr olunmuş bir roman kimi maraqlı elmi müşahidələr üçün geniş imkan yaradır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın əsas obyekti İsmayıl Şıxlının "Dəli Kür" romanıdır. Ümumən Azərbaycan filologiyasının diqqət mərkəzində olan "Dəli Kür" romanı folklorşünasların da diqqətini cəlb etmiş, romanın folklorla əlaqələri barədə müxtəlif tədqiqatlar aparılmışdır. Bu dissertasiyada isə tədqiqatın əsas predmeti müasir Azərbaycan nəsrini, bu nəsrin səciyyəvi nümunələrindən olan "Dəli Kür" romanını türk epos ənənəsinə bağlayan cəhətlər, "Dəli Kür" romanının poetikasını epos poetikasına, romandakı qəhrəman obrazını epik qəhrəman arxetiplərinə bağlayan cəhətlər və bütün bu cəhətlərin sistemidir.

**Araşdırmanının məqsəd və vəzifələri**. Tədqiqatın qarşısında duran başlıca məqsəd İsmayıl Şıxlının "Dəli Kür" romanı əsasında müasir Azərbaycan nəsrində epos ənənəsinin sistemli öyrənilməsidir. Bu məqsəd üç kompleks xarakterli işin həyata keçirilməsini vəzifə kimi qarşıya qoymuşdur:

- Müasir Azərbaycan nəsrinin ideya-estetik mənbəyi kimi türk epos təfəkkürünün rolunun üzə çıxarılması;
- "Dəli Kür" romanında epos poetikasının yerinin müəyyənləşdirilməsi;
- "Dəli Kür" romanında baş qəhrəman (Cahandar ağa) obrazının epik qəhrəman arxetipi kontekstində öyrənilməsi.

**Mövzunun öyrənilmə dərəcəsi**. "Dəli Kür" romanı Azərbaycan filoloji fikrində tədqiqata ən çox cəlb edilmiş və cəlb edilməkdə olan əsərlər sırasındadır. Əsərlə bağlı zəngin biblioqrafiyanı nəzərdən keçirdikdə burada tədqiqatların, əsasən, üç istiqamətdə aparıldığını müşahidə edirik:

1. Romanla bağlı ədəbi-tənqidi yazılar:

“Dəli Kür” romanı çap olunan kimi ədəbi tənqid bu əsərə dərhal reaksiya verdi. Azərbaycan tarixinin maraqlı dövrünə, milli-mədəni həyatın mürəkkəb məsələlərinə həsr olunmuş roman ədəbi-tənqiddə müxtəlif reaksiyalar doğurdu. Lakin romanı istər təqdir edənlərin, istərsə də onu sovet reallıqlarına uyğun əsər hesab etməyənlərin hamısı bir əsas nöqtədə – əsərin milli-mənəvi dəyərlərlə, milli bədii-estetik prinsiplərlə sıx bağlı olması məsələsində birləşirdi.

2. Romanla bağlı ədəbiyyatşünaslıq araşdırmaları:

“Dəli Kür” romanı daha sonra Azərbaycan ədəbiyyatşünaslığında geniş şəkildə təhlil olunmağa başladı. Əsər ən müxtəlif istiqamətlərdə, o cümlədən müasir Azərbaycan romançılığı və sovet romançılıq ənənəsi müstəvilərində araşdırmalara cəlb olundu. Bu tədqiqatlar “Dəli Kür” romanının epik əzəmət və zənginliyini ortaya qoydu.

3. Romanın milli-mənəvi dəyərlər və mill epik ənənə ilə əlaqəsinə aid tədqiqatlar:

“Dəli Kür”ə həsr olunmuş ən müxtəlif yazılarda onun milli-mənəvi dəyərlərlə bağlılığı, Azərbaycan epik təfəkkürünün tarixi-mədəni potensiyasını özündə əks etdirməsi və s. tədricən ayrıca tədqiq istiqamətinə çevrilməyə başladı. Bu istiqamətin get-gedə genişlənməsi əsərin milli düşüncənin qaynaqları, bədii-estetik kökləri, epik potensiya ilə əlaqəsi kimi məsələləri aktuallışdırdı. “Dəli Kür”lə bağlı tədqiqatlarda bu aspektin aydın şəkildə müşahidə olunmasına baxmayaraq, roman indiyədək epos ənənəsi kontekstində monoqrafik tədqiqatın mövzusuna çevrilməmişdir. Bu iş ilk dəfə mövcud dissertasiyada həyata keçirilir.

**İşin nəzəri-metodoloji əsasları.** “Dəli Kür” romanının epos ənənəsi kontekstində öyrənilməsi istər tarixi, istərsə də müqayisəli yanaşmanı zəruri etmişdir. Tarixi-müqayisəli metod bütün başqa yanaşmaları da öz içərisinə almaqla tədqiqatın başlıca təhlil üsulu kimi özünü göstərmişdir.

Folklorşünaslıq indeksi ilə yazılmış bu əsərdə obyektə baxış tarixi xarakterlidir. Yəni tədqiqatda romandan eposa baxış yox, eposdan romana baxış var. Bu, bilavasitə folklorşünaslıq indeksinin nəzəri-metodoloji prinsiplərindən irəli gəlmişdir. Bu cəhətdən əsərdə Azərbaycan folklorşünaslıq və filoloji fikrindəki epos, epik təfəkkür,

onun etnik-mədəni əsasları, epik düşüncənin mərhələləri, inkişaf xüsusiyyətləri, folklor və yazılı ədəbiyyat və s. ilə bağlı H.Araslı, Ə.Dəmirçizadə, M.Arif, M.Təhmasib, X.Koroğlu, İ.Abbaslı, T.Hacıyev, B.Abdulla, A.Nəbiyev, N.Araslı, K.Abdulla, N.Cəfərov, Ş.Cəmşidov, P.Əfəndiyev, M.Cəfərli, M.Kazımoğlu, R.Qafarlı, F.Bayat, K.Əliyev, A.Hacılı, K.Hüseynoğlu, M.Allahmanlı, R.Əliyev və başqa mütəxəssislərin tədqiqatlarından nəzəri-metodoloji baza kimi istifadə olunmuşdur.

**Tədqiqatın elmi yenilikləri.** "Dəli Kür" ayrı-ayrı tədqiqatlarda folklordan gələn obraz və motivlər baxımından müəyyən qədər öyrənilsə də, roman epos ənənəsi kontekstində bir problem kimi indiyədək tədqiq olunmamışdır. Mövzunun orijinallığı tədqiqatın yeniliklərini şərtləndirmişdir. Belə ki, dissertasiyada aşağıdakı elmi yeniliklər əldə edilmişdir:

1. 60-70-ci illər Azərbaycan nəsrinin yeni ideya-bədii axtarışları fonunda folklor potensiyasının oynadığı rolun nəzəri-estetik əsasları üzə çıxarılmışdır.

2. "Dəli Kür" romanı da daxil olmaqla müasir Azərbaycan romanının qədim türk epos təfəkkürü ilə əlaqələri öyrənilərək, nəzəri cəhətdən əsaslandırılmışdır.

3. İsmayıl Şıxlının timsalında ilk dəfə olaraq, şəxsiyyətin folklor tipologiyası məsələsi qoyulmuş və bu kontekstdə epos məntiqindən "Dəli Kür"ə aparan yollar üzə çıxarılmışdır.

4. "Dəli Kür" əsərinin bir roman kimi epik strukturu öyrənilmiş və əldə olunan nəticələr qədim türk epos poetikasının prinsipləri baxımından dəyərləndirilmişdir.

5. "Dəli Kür" romanının poetik xronotopu tədqiq olunmuş, epos poetikasının roman poetikasında yaşayan epik zaman formulları bərpa olunmuşdur.

6. Epik ideyanı təcəssüm etdirən Cahandar ağa obrazı ilk dəfə olaraq, Azərbaycan epik düşüncəsinin qəhrəman arxetipi kontekstində dəyərləndirilmişdir.

7. Cahandar ağa obrazı ilk dəfə olaraq, linqvopoetik təhlil kontekstinə gətirilmiş və bu axarda obrazın epik yaddaş formulları ilə bağlılığı aşkarlanmışdır.

8. Cahandar ağa obrazı epik qəhrəman arxetipi kontekstində

psixoloji amillər baxımından səciyyələndirilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin həm nəzəri, həm də praktiki əhəmiyyəti vardır. Tədqiqatın nəzəri dəyəri onun elmi nəticələrindən epos və yazılı ədəbiyyat istiqamətində aparılacaq tədqiqatlarda istifadə imkanları, praktiki dəyəri isə tədqiqatdan ali məktəblərin filologiya fakültələrində türk eposlarının, XX əsr nəsrinin, müasir roman yaradıcılığının tədrisində istifadə imkanları ilə ölçülür.

**Tədqiqatın aprobasiyası.** İş Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Folklor və yazılı ədəbiyyat" şöbəsində yerinə yetirilmişdir. İşdə əldə edilmiş nəzəri qənaətlər, əsas mülahizə, yenilik və başlıca nəticələr dissertasiya müəllifinin Azərbaycanda və xarici ölkələrdə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi məcmuələrdə çap etdirdiyi əsərlərdə əks olunmuşdur.

**İşin quruluşu.** Tədqiqat giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın üç yarımfəsildən ibarət olan birinci fəsli "**Türk epos təfəkkürü müasir Azərbaycan nəsrinin ideya-estetik mənbəyi kimi"** adlanır. Burada Azərbaycan nəsri, onun keçdiyi inkişaf yolu, qazandığı təcrübə və təkmilləşmə spesifikası türk epos təfəkkürü işığında tədqiqata cəlb olunmuşdur. Məsələyə həm Azərbaycan nəsrinin ümumi konturları, yaradıcılıq axtarışları yönündən, həm də həmin nəsrin kəsb etdiyi xarakter baxımından yanaşılmış, bütün təhlillər türk epos təfəkkürünə nəzərən aparılmışdır.

Birinci fəslin birinci yarımfəsli "*60-70-ci illər Azərbaycan nəsrinin yeni ideya axtarışları və folklor"* adlanır. Burada problemə təkcə 60-70-ci illər Azərbaycan nəsri baxımından deyil, bu dövrə qədər meydana gələn 30-40-cı, 50-60-cı illər Azərbaycan nəsri aspektindən də baxılmış, həmin dövrlər ədəbi prosesdəki istiqamət və yönlər təhlil edilmişdir. Burada aparılmış tədqiqat göstərmişdir ki, XX əsrin ikinci yarısı Azərbaycan milli ədəbiyyatı bədii-estetik

funksiya ilə yanaşı, öz üzərinə ümummilli səviyyədə gerçəkləşən “milli özünüdərk” missiyasını da götürməyə başlayır. Bu dövrdə milli özünüdərk üçün son dərəcə mühüm faktor olan  tarixin dürüst milli ideoloji konsepsiyada təqdimi də, sosioloji və politoloji şüurun milli prinsiplər əsasında formalaşması da, etnogenezislə bağlı problemlər də, milli azadlıq ideyaları da tarixdən, politoloji sahələrdən daha çox, ədəbiyyatda və ədəbiyyatşünaslıqda bədii və elmi-nəzəri tədqiqatın predmetinə çevrilməyə başlayır.

Bu mərhələdə ümumən ictimai mühitdə ideoloji yasaqların tədricən aradan qalxması, sovet ədəbi düşüncəsinin dünya ədəbi düşüncə dövriyyəsinə daxil olması, yaxud da daxil olma cəhdləri göstərməsi ədəbiyyatı yeni ideya-estetik, bəzən də fəlsəfi fikirlərlə zənginləşdirir. İkinci dünya müharibəsindən sonra Avropada başlamış fikir axtarışları, ekzistensionalizm, modernizm, sürrealizm və s. cərəyanlar Azərbaycan ədəbi düşüncəsində də əks-səda doğurur. Bütün bu proseslərin nəticəsi olaraq İnsan və onun mənəvi-psixoloji dünyası Azərbaycan ədəbiyyatında bədii tədqiqatın mərkəzi predmetinə çevrilir.

Tədqiqatçılardan M.İmanov Azərbaycan nəsrindəki yeni tendensiya barədə yazır ki, “50-ci illərin sonu, 60-cı illərin əvvəllərindən etibarən Azərbaycan nəsrində baş verən keyfiyyət dəyişikliyinin başlıca mahiyyətini ədəbi tənqid haqlı olaraq insanın ön plana çəkilməsində gördü. Nəsrin yaxın keçmişi ilə bu günü arasında müqayisələr aparılması, arxada qalmış mərhələnin səciyyəvi qüsurlarının üzə çıxarılması dəyişiklik və inkişafı daha aydın qavramağa kömək etdi… Nəsrin yeni mərhələsində qəhrəman müəllifin oxucuya çatdırmaq istədiyi ideyaların ruporu olmaqdan xilas edilir... İnandırıcı boyalar, real cizgilərlə işlənmiş bədii xarakterlər sosial problemləri ifadə etməyin səmərəli yolu sayılır”[1].

Ümumiyyətlə, “altmışıncılar” Azərbaycan ədəbiyyatı və ədəbi düşüncəsində xüsusi mərhələdir. V.Səmədoğlu yazır ki, “mən altmışıncı illəri 1961-ci ildən başlanıb 1970-ci ildə qurtaran bir vaxt

[1] İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı: Elm, 1991, s. 52

axarı, zaman yolu kimi qəbul etmirəm… Mənim mənsub olduğum nəslə, dünyaya otuzuncu illərdə gəlsək də, altmışıncılar deyirlər”`[2].

Y.Qarayev yazır ki, “almışıncı-yetmişinci illər nəslinin poeziyasını əvvəlki nəsillərin poeziyası ilə çox şey birləşdirir. Fərdin mənəvi varlığını ümummilli və ümumbəşəri “yaddaş”la bağlayan ədəbi bağlara ən fəal marağı şeirin bütün nəsillərini birləşdirən belə bir ümumi və müştərək maraq saymaq olar”[3].

Müasir Azərbaycan romanının formalaşmasında, sözün həqiqi mənasında, Azərbaycan romanı hadisəsinin meydana gəlməsində onun ideya-estetik və poetik baxımdan Azərbaycan dastanlarına, bir az da ümumiləşmiş şəkildə ifadə etsək, türk epos təfəkkürünə dayanması əsas şərtdir. Bu elə bir mənbədir ki, məhz Azərbaycan romanının milli müəyyənlik keyfiyyəti onun hesabına formalaşır. Avropa roman təcrübəsi ənənələri məhz həmin epos təfəkkürünün birbaşa müdaxiləsi hesabına milli bədii fenomenə çevrilir.

Görkəmli ədəbiyyatşünas N.Paşayeva qeyd edir ki, “60-cı illər nəsrində bütün ədəbiyyat tariximizin izi bu və ya başqa dərəcədə özünü göstərməkdədir”[4].

60-70-ci illər Azərbaycan nəsrinin yeni ideya axtarışlarında folklorun aktuallaşması zaman faktoru ilə bağlı məsələdir. Burada zaman fiziki mənada yox, dövr, epoxa mənasında götürülür. Bu baxımdan keçən əsrin 60-cı illəri adi dövr deyildi. V.Səmədoğlu bu dövrü emosional-ritorik üslubda səciyyələndirərək göstərir ki, “nədir axı bu altmışıncılar və altmışıncı illər? İlk növbədə, ədəbiyyat və incəsənət baxımından. Bu, əsrin içində yaşanmış İntibah dövrüdürmü? Əlbəttə. Bu İntibahı ədəbiyyata, incəsənətə, humanitar və dəqiq elmlərə altmışıncı illərdə gəlmiş, fəaliyyətə başlamış insanlarmı yaradıblar? Əlbəttə ki, yox. Yalnız onlar yox.... 60-cı illər fenomeni yalnız Azərbaycanda və o zamankı SSRİ-də yox, bütün dünyada baş verdi. 60-cı illər keçmişə, bugünə və gələcəyə yeni

---

[2] Səmədoğlu V. Şair və zaman (məqalələr, müsahibələr, haqqında deyilənər, məktublar). Bakı: Elm, 2010, s. 13

[3] Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, s.35

[4] Paşayeva N.A. Müasir Azərbaycan ədəbiyyatında insanın bədii-estetik dərki (Xalq yazıçısı Elçinin yaradıcılığı əsasında). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2004, s. 27

rakursdan baxış nöqtəsi idi… Əhali və ərazi baxımından çox da böyük olmayan Azərbaycan 60-cı illər İntibahının dünyada baş verən ədəbi hadisələrinin əksəriyyətindən gen düşmədi, bir çox sahələrdə öz sözünü dedi… O illərdə ekzistensializm fəlsəfəsi bütün dünyanı bürüdü. Sartrın, Kamyunun, Yaspersin bəzi əsərləri makinada çap olunub "Samizdat" adı ilə əldən-ələ gəzdi. Min illər tarixi olan dzenbuddizm fəlsəfəsi də elə bil yenidən dirildi. 60-cı illərdə dünyanın elə bil gözlərinə işıq gəlmişdi, hamı nəsə yeni bir şey görmək, başqalarına bir yenilik göstərmək ehtirası ilə yaşayırdı. İnsan təfəkkürünün elə bir fəaliyyət sahəsi yoxdur ki, orada həmin dövr öz sözünü deməsin, ya da deməyə cəhd göstərməsin. Dindən tutmuş caz musiqisinə qədər, fəlsəfədən başlamış paltar modalarına kimi, azadlıq ideyalarından rok, pop musiqisinəcən. Dizayn sənətində, demək olar ki, inqilab baş verdi"[5].

Ümümi kulturoloji proseslər daxilində romançılığın epik folklor təfəkkürünə müraciəti işi ilə İsa Hüseynov, İsmayıl Şıxlı, İsi Məlikzadə, Mövlud Süleymanlı və başqa yazıçılar daha çox məşğul olmağa başlayırlar. Onların nəsr təfəkkürü bilavasitə folklor düşüncə standartlarına əsaslanır. K.Yunq yazırdı: "Bizim təhtəlşüurumuz bizim bədənimiz kimi keçmişin izlərini özündə əks etdirir. Biz yalnız bioloji varis olaraq deyil, psixoloji varis kimi də doğuluruq. Bu və ya digər mərhələdə görüş və təcrübə ayrılır. İnsan bədəni özünü bütün orqanların muzeyi olaraq göstərdiyi kimi, psixologiya da nəslin tarixi təcrübəsini əks etdirir"[6].

Bəs türk eposu və yazılı nəsr arasında belə bir irs-varis əlaqəsi hansı mexanizmlər hesabına təmin edilir?

Zəngin epik təfəkkürə malik olan türklər dünyanın ən çox epos yaradan xalqlarından biridir. "Maaday-Qara", "Alpamış", "Manas", "Kitabi-Dədə Qorqud", "Koroğlu" və s. kimi eposlar türk mənəvi universiumunun, demək olar ki, bütün parametrlərini özündə əks etdirir. Türklərin bu qədər dastan yaratmağının səbəbini Türkiyə

---

[5] Səmədoğlu V. Şair və zaman (məqalələr, müsahibələr, haqqında deyilənlər, məktublar). Bakı: Elm, 2010, s. 3-15

[6] Теория личности в западноевропейской и американской психологии. Самара: Бахрах. 1996, с. 134

folklorçusu Məhərrəm Ergin onların həyat tərzinin qəhrəmanlıqla bağlı olmasında, bu baxımdan zəngin bir həyat yaşamasında görür: "Dastan şərtlərinə sahib olmuş hər millətin bir milli dastanı varkən, Türklərin həyatı birdən çox milli dastan içində dilə gətirilmişdir. Bunun səbəbi türklərin milli həyatının və tarixi macəralarının bir dastana sığmamasıdır"[7].

Məlumdur ki, folklor təfəkkürü şifahi dil modellərində gizli şəkildə yaşayır. Bu mənada dil milli folklor təfəkkürünü özündə gizlədən aysberqə bənzəyir. Zahirən adi görünən ifadə, paremi və müraciətlərdə min illərin  zəngin etnik düşüncə təcrübəsi qat-qat qalaqlanıbdır. Haqqında danışdığımız yazıçılarımız da 60-70-ci illərdə ədəbi dilin ütülü normalarından canlı xalq danışıq üslubuna doğru hərəkət edirlər. Bu hadisəni "Dəli Kür" romanının dilində xüsusi şəkildə müşahidə etmək mümkündür. "Dəli Kür" romanının dilinə ayrıca monoqrafiya həsr etmiş Ə.Tanrıverdi yazır ki, "Azərbaycan dilinin ifadə imkanlarının zənginliyindən sənətkarlıqla faydalanan İ.Şıxlı "Dəli Kür"də öz təhkiyə dilini yaratdığı obrazların dilindən fərqləndirməklə yanaşı, hər bir obrazı öz dilində danışdırmağı da bacarmış, sözdən möhtəşəm dil abidəsi yaratmışdır". Tədqiqatda fikirlərini davam etdirərək "Dəli Kür"ün dilini "Dədə Qorqud kitab"ı, "Koroğlu" eposu kimi abidələrimizin dili ilə müqayisə edir[8].

Bütün bu söylənilənlər göstərir ki, 60-70-ci illər Azərbaycan nəsrində yeni ideya axtarışları bütün parametrlər səviyyəsində folklordan yan keçə bilməmişdir. Folklor ədəbiyyat, o cümlədən nəsr üçün enerji mənbələrindən biri olmuşdur.

Birinci fəslin ikinci yarımfəsli "*Müasir Azərbaycan romanı və epos təfəkkürü"* adlanır. Burada birbaşa olaraq problemə epos təfəkkürü kontekstində baxılmış və məsələnin bir neçə səviyyəsi araşdırmaya cəlb olunmuşdur. Qeyd olunmuşdur ki, epos və müasir romanlar arasında əlaqəni daha dərindən araşdırmaq üçün ilk öncə epos və roman anlayışına, onların poetik özünəməxsusluğuna nəzər salmaq lazımdır. Bunun üçün epos barədə verilən aşağıdakı fikirlərə nəzər yetirək:

---

[7] Ergin M. Birinci nəşrin ön sözü./ "Oğuz Kağan" dastanı, Ankara: 1988, s. 5-10
[8] Tanrıverdi Ə. «Dəli Kür»romanının poetik dili. Bakı: Elm və təhsil, 2012,  s. 78

1) Eposun əsas cəhətlərindən biri mifik düşüncəni özündə ehtiva edib yaşatmaqdır.

2) Epos real tarixi şəraiti ifadə edən bir janrdır.

3) Epos ən kiçik janrlardan tutmuş ən iri janrlara qədər bütün layları özündə ehtiva edən janrdır. Yəni bir növ etnosun bütün yaradıcılıq imkanlarının yekunu eposdur[9].

Epos təkcə mətn hadisəsi deyildir. O, etnosun milli kimliyini digərlərindən fərqləndirən, onun mental psixologiyasının çoxplanlı və çoxşaxəli şəkildə təcəssüm etdirən düşüncə prosesidir. Odur ki, epos düşüncəsi özlüyündə mətnləşən zaman daha çox irihəcmli məhsula çevrilir. O, öz içərisində müxtəlif tipli mətnləri - nağıl, əfsanə, rəvayət, qaravəlli, atalar sözü, qoşma, gəraylı və s. kimi janrları ehtiva edə bilir. Bu xüsusiyyətlərin bəziləri roman janrının da xarakterik xüsusiyyəti kimi diqqəti cəlb edir. Roman janrının bu xüsusiyyətini nəzərə alan professor N.Paşayeva haqlı olaraq yazır: "Roman janrı qədər insanın daxili ehtiyac və hissiyyatını, xarakter və səciyyəsini zəngin və çoxplanlı şəkildə təsvir edən ikinci bir janr mövcud deyildir. Bu ona görə belədir ki, roman ayrıca bir janr kimi həm də özündə, daxilində bütün digər janrların daxili təcrübəsini əridərək ümumiləşdirmişdir"[10].

Həm klassik epos nümunələri, həm də müasir Azərbaycan romanları eyni mental yaddaşdan doğan əsərlərdir və onlarda eyni mədəni faktlar mental strukturun tərkibi olaraq təkrarlanır. Klassik epos və müasir roman vahid mədəni sistemin tərkibi kimi götürülür. Müasir Azərbaycan romanlarında epos mədəniyyəti aşağıdakı səviyyələrdə özünü büruzə verir:

1) Klassik Azərbaycan eposları müasir Azərbaycan romanlarının mövzu mənbəyinə çevrilir.

2) Azərbaycan epos dili müasir romanlarımızda ritmik dilə qida verir. Bu halda bəzən mövzu birbaşa olaraq klassik eposlarımızla bağlı olmasa da, təhkiyədə klassik eposların təsiri hiss olunur.

---

[9] Qarayev S., Quliyev H. Bədii poetikadan mifopoetik semantikaya // Eposşünaslıq: problemlər və mülahizələr. Bakı: Elm və təhsil, 2013. s. 241

[10] Paşayeva N. İnsan bədii tədqiqat obyekti kimi. Bakı: «XXI» - Yeni Nəşrlər Evi, 2003, s. 107

3) Klassik epos və müasir romanın eyni mental psixologiyanın məhsulu olduğuna görə qəhrəmanların hadisə və faktlara oxşar münasibət göstərməsinin şahidi oluruq.

4) Klassik Azərbaycan eposları müasir Azərbaycan romanlarının rekonstruksiya xammalı kimi çıxış edir.

Birinci fəslin üçüncü yarımfəsli *"İsmayıl Şıxlı: şəxsiyyətin folklor tipologiyası (epos məntiqindən "Dəli Kür"ə aparan yollar)"* adlanır. Burada İsmayıl Şıxlının həyat salnaməsi, şəxsi xarakter və təcrübəsi, yaradıcılıq spesifikası epos mədəniyyəti kontekstində araşdırılmışdır. Qeyd olunmuşdur ki, müasir Azərbaycan ədəbiyyatının elə nümayəndələri var ki, onların yaradıcılıqları ilə şəxsiyyətləri arasındakı əlaqənin tipologiyasını ya ümumiyyətlə müəyyənləşdirməyə çətinlik çəkirsən, ya da belə bir əlaqə absurd xarakter daşıyır. Belə ədiblərimizin əsərləri nə qədər çox təhlil edilir edilsin, mətn heç bir halda şəxsiyyətə gətirib çıxarmır. İsmayıl Şıxlıya münasibətdə isə məsələ tamamilə fərqlidir. Onun zəngin nəsr yaradıcılığı ilə bağlı milli ədəbi-nəzəri fikrimizdə mövcud olan araşdırmalar etnik-milli məsələləri əhatə etməklə yanaşı, sövqi-təbii bir stixiya ilə sözün geniş mənasında İsmayıl Şıxlı şəxsiyyətinə doğru yön alır. Sanki İsmayıl Şıxlı şəxsiyyətinin cazibəsi təbii olaraq araşdırmaları öz təsir orbitinə çəkir, onları İsmayı Şıxlı obrazının məntiqi ilə düşünməyə, anlamağa vadar edir. Tədqiqatçılardan N.Cəfərov bu cəhəti çox dəqiq müşahidə etmişdir: "Azərbaycan ədəbi-mədəni, ictimai-estetik təfəkküründə İsmayıl Şıxlı obrazı yazıçının yaratdığı obrazlardan, əgər belə demək mümkünsə, daha mükəmməl, daha məşhur, daha bədiidir… O, həyatı, fəaliyyəti, yaradıcılığı ilə təkrarsız bir obraz – İsmayıl Şıxlı obrazını, qeyri-adi bir metafora – İsmayıl Şıxlı metaforası yaratdı"[11].

İ.Şıxlı üçün folklor, xalq müdrikliyi ötüb keçmiş tarixi mərhələ deyil, bu günün dərki üçün ən dəqiq idraki oriyentirlərdir. Müəllif sosial həyatın təzahürlərini məhz həmin oriyentirlərə söykənərək dəyərləndirir, yaxşını və pisi bu prizmadan qiymətləndirir.

Ötən əsrdə 80-ci illərin sonlarından xalq hərəkatına qoşulan ədib xalqın səsinə səs verir. 20 yanvar hadisələrində rus ordusunun

---

[11] Cəfərov N. İsmayıl Şıxlı, yaxud müdrikliyin poetikası / Cəfərov N. Seçilmiş əsərləri. 5 clddə, V c. Bakı: Elm, 2007, s. 96

Bakıdan çıxmasında mühüm rol oynayır. "Mənsub olduğu xalqın, millətin adət-ənənələrinə bələd olan, onun dərdinə də, sərinə də şərik çıxan, mili dəyərlərimizin qoruyucusuna çevrilən və bu yolda yorulmadan, əzmlə mübarizə aparan yazıçı-publisist, ilk növbədə isə vətəndaş olmaqla öz həmvətənlərinin hüquqlarını qoruması, müdafiəsi uğrunda həmişə döyüşlərə atılmışdır İsmayıl Şıxlı"[12].

Xalqımızın tarixi taleyi üçün son dərəcə məsuliyyətli olan o günlərdə kifayət qədər mürəkkəb, hətta qarışıq ictimai proseslərin milli mövqedən dəqiq dəyərləndirilməsində epos məntiqi özünü qabarıq şəkildə göstərir: "Sapı özümüzdən olan baltalar!". Xalq epik təfəkküründən götürülmüş bu ifadə həmin dövr üçün rus imperializminin bütün mahiyyətini son dərəcə dəqiq ifadə edən, milli faciəmizin nüvəsindəki mahiyyəti nişan verən bir düstura çevrilir. Həmin tarixi dövrlərdə İ.Şıxlının timsalında belə bir həqiqət bir daha təsdiqini tapır ki, folklor təfəkkür modelləri heç bir zaman, heç bir kənar müdaxilə nəticəsində məhv olmur. O, xalqın yaddaşında daim diridir və xalqın tarixi taleyi üçün məsuliyyətli məqamlarda aktivləşib bütün digər məntiqləri özünə tabe etdirir, həmçinin xalqa ən düzgün yolu göstərir. Bir şərtlə ki, o xalqın epik yaddaşı öz yaddaşında diri olaraq yaşadan tarixi şəxsiyyəti olsun…

Dissertasiyanın iki yarımfəsildən ibarət olan ikinci fəsli **"Dəli Kür" romanında epos poetikası"** adlanır. Bu fəsildə "Dəli Kür" romanında epos poetikası ilə bağlı müşahidə edilən fakt, detal, işarə, motiv, süjet və s. qarşılıqlı müqayisə olunmuş və müəyyən elmi nəticələr irəli sürülmüşdür.

İkinci fəslin birinci yarımfəsli "*Epos poetikasının prinsipləri baxımından "Dəli Kür" romanının epik struktur elementləri"* adlanır. Burada göstərilir ki, roman yaradıcılığında epos təfəkkürü üç formada özünü göstərir:

1. Epos təfəkkürünə məxsus universallıq, diapazonluluq, mürəkkəb süjet xətti və çoxsaylı obrazlar aləminə məxsusluq;

---

[12] Orucov Y. Nəsrimizin Cahandar ağa mücəssəməsi // "Yeni Azərbaycan" qəz., 14 aprel 1994-cü il.

2. Epos təfəkkürünün süjet və motivlər, detal və faktlar şəklində əks olunması;
3. Epos təfəkkürünün epik düşüncə modeli şəklində özünü göstərməsi.

Bütün bu xüsusiyyətlər romana həm birbaşa, həm də dolayı yolla daxil ola bilir. Birbaşa yolla epos təfəkkürünün romana keçməsi müəllifin eposa məxsus ad, işarə, simvol və detallardan istifadə etməsi nəticəsində baş verir ki, bu da çox halda epos qəhrəmanlarının adlarından, onlara məxsus davranışlardan istifadə olunmasında özünü göstərir. Dolayı yolla əks olunmada isə müəllif özündən asılı olmayaraq, yəni qeyr-iradi, qeyri-şüuri şəkildə epos təfəkkürünə məxsus mexanizmlə əsər yaratmış olur. Lakin hər iki hal bir-birilə sıx bağlıdır və bəzən hər hansı bir faktın hansı yolla roman təfəkkürünə daxil olmasını fərqləndirmək çox çətin olur.

İsmayıl Şıxlının "Dəli Kür" romanındakı epoxal qarşıdurma, keçmiş və gələcəyin toqquşması zəminində ənənəçilik və yenilikçiliyin qarşı-qarşıya durması, əslində, epos təfəkkürünə məxsus cəhətdir. Yadımıza salaq ki, epos mifoloji düşüncə ilə tarixi düşüncənin lövhələrini yaradan, hər iki düşüncənin detallarını özündə əks etdirən janr kimi ziddiyyətlərin, qarşıdurma və toqquşmaların təzahürüdür. Romanın əsas yükünü daşıyan obraz kimi Cahandar ağa özündə epos təfəkkürünə məxsus obrazların əlamət və davranışlarını yaşadır. Onun şəxsində bir sıra qarşıdurma detalları cəmlənmişdir. O, bir tərəfdən mühafizəkardırsa, keçmişin ifadəçisidirsə, digər tərəfdən mütərəqqi qərar və addımları ilə yeniliyə meyllidir.

Romanın adı iki sözdən – vətənimizin ən böyük və bolsulu çayı olan Kür və onun təyinedicisi rolunda çıxış edən "dəli" sözündən ibarətdir. Bu adın təhlili onu deməyə imkan verir ki, "Dəli Kür" adı, bəlkə, Kürün "ipə-sapa yatmaması" ilə sıx bağlıdır. Bu mənada romanın adı xalq dili və duyumu xəzinəsindən qaynaqlanır. Bununla belə "Dəli Kür" adında daha dərində gizlənmiş mətləblər də vardır. Yazıçının romana "Dəli Kür" adı verməsi, onu "dəli" epiteti ilə təqdim etməsi özündə poetik sirlər gizlədir. "Kür" sözünün dilimizdə dəli, tərslik mənaları vardır. "Uşaq kürlük edir" deyəndə onun nədənsə sürəkli ağlamağı, sakitləşməməyi nəzərdə tutulur. Lakin "kür" sözünün birbaşa dəli mənası da vardır. Yəni İ.Şıxlı milli

düşüncənin daşıyıcısı olan bir yazıçı kimi "kür" sözünün dəli mənasından, şübhəsiz ki, xəbərsiz olmamışdır. Bizə elə gəlir ki, "Dəli Kür" kimi ciddi və dərin məzmunlu, nəsillərarası toqquşma problemini ehtiva edən bir əsərə bu adın verilməsi birbaşa olaraq epos təfəkkürü ilə sıx bağlıdır. Belə ki, istər ana abidəmiz olan "Kitabi-Dədə Qorqud" eposunda, istərsə də "Koroğlu" eposunda dəli epiteti ilə bağlı olan xeyli ad, davranış, işarə və simvol yer almışdır.

Bəlli olduğu kimi, "Kitabi-Dədə Qorqud"da Oğuz, "Koroğlu"da Çənlibel mifoloji xarakterə malik olan məkanın işarəsidir. İ.Şıxlının "Dəli Kür" romanında isə Kür bu xarakterə malik obrazdır. Çünki romanda, demək olar ki, hər şey Kürə nəzərən müəyyənləşir. Müəllif bütün təsvirlərini məhz Kürlə müqayisədə verir: "Mələk də Kürdən xeyli aralı olan dağ kəndlərindən idi"[13], "Bir gün Mələyi Kürün aşağı tərəfindəki kəndlərdən birinə ərə verdilər"[14].

Müəllifin bu təsvirlərində Kür canlı varlıq kimi təqdim edilir: "Göy inildəyib şaqqıldadı. Selləmə yağış başladı. Suyun üzü atılıb-düşdü. Elə bil Kürü daşa basdılar!"[15]. Yaxud "Deyəsən yenə Kürün dəliliyi tutub"[16], "Göytəpənin yanında burulğanlı və hikkəli olan Kür burada quzu kimi sakit idi"[17].

Bu yarımfəsildə epos təfəkkürü üçün xarakterik olan ata-oğul konflikti də "Dəli Kür" romanı əsasında təhlil olunmuşdur. Cahandar ağa ilə oğlu arasında baş verən konflikt məhz bu aspektdən dəyərləndirilmişdir.

İkinci fəslin ikinci yarımfəsli ""*Dəli Kür" romanında epos poetikası baxımından tarixi və epik zamanlar"* adlanır. Burada qeyd olunur ki, "Dəli Kür" romanının tarixiliyi onun müraciət olunan mövzusu ilə daha çox bağlıdır. Müraciət olunan dövrün tarixi xarakteri tarixi layı şərtləndirən əsas cəhətdir.

Romanda tarix yalnız bir tarix olaraq deyil, həm də etnik-milli xarakterin qorunduğu qat kimi təsvir edilmişdir. Müəllif yaxın tarixi keçmişi elə bir rakursdan bədii təhlilin predmetinə çevirmişdir ki, bu

---

[13] Şıxlı İ. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı: Şərq-Qərb, 2005, s. 24
[14] Yenə orada, s. 26
[15] Yenə orada, s. 54
[16] Yenə orada, s. 54
[17] Yenə orada, s. 54

baxış bucağından həmin tarixi dövrdə folklor yaddaşının, onun ayrı-ayrı prinsiplərinin cəmiyyətin sosial nizamında əhəmiyyətli rol oynadığı açıq-aşkar görünür. Məhz buna görə Cahandar ağa surəti tarixi obraz olmaqdan daha çox, epik qəhrəmana bənzəyir.

"Dəli Kür" romanında tarixə münasibətdə fərdi müəllif təxəyyülü də müəyyən qədər folklor təfəkkür modellərinə əsaslanır. T.Əlişanoğlu "Dəli Kür" romanının tarixiliyi haqqında yazır: "Əslində burada tarix ("Dəli Kür" romanı nəzərdə tutulur – T.R.) müasirliyə baxışın davamı, onun tərkib hissəsi kimi gəlir, tarixin dərki, eyni zamanda gerçəklikdə diri və aktual olan problemin şərhi kimi meydana çıxır, faktura – tarixi, problematika çağdaşlığı nişan verir. Amma, məsələn, F.Kərimzadənin "Qarlı aşırım" əsəri mövzunu daha yaxın keçmişdən alsa da, daha "tarixi"dir, çünki burada bütöv bir tarix konsepsiyası aktuallaşmışdır"[18].

Daha sonra bu yarımfəsildə türk arxaik mədəniyyətinə aid dəyərlər sistemi ilə əsərdəki ail-məişət, ata-oğul, bacı-qardaş münasibətləri qarşılaşdırılır və bu münasibətlər kontekstində Cahandar ağa obrazının universal semantikası araşdırılmış olur.

Dissertasiyanın iki yarımfəsildən ibarət olan üçüncü fəsli ""**Dəli Kür" romanında Cahandar ağa obrazının epik qəhrəman arxetipi"** adlanır. Bu fəsildə "Dəli Kür" romanının əsas qəhrəmanı olan Cahandar ağa obrazı epik qəhrəman arxetipi aspektindən araşdırılmışdır.

Üçüncü fəslin birinci yarımfəsli *"Cahandar ağa obrazının epik qəhrəman arxetipi baxımından təhlili"* adlanır. Burada göstərilir ki, İsmayıl Şıxlı nəsrində, xüsusən "Dəli Kür"də təsvir olunan hadisələrin mərkəzi obrazda konsentrasiya edilməsi bilavasitə epos təfəkküründə olan epik qəhrəman arxetipindən qaynaqlanır. Türk eposlarında epik qəhrəman bütün hallarda hadisələrin mərkəzindədir. Bütün epik süjet, hadisələr onun ətrafında cəmlənir. Hətta belə bir ümumiləşmiş qənaət də vardır ki, türk eposlarında epik qəhrəman süjetə deyil, süjet epik qəhrəmana tabedir. Ən qədim türk dastanlarındakı epik qəhrəman türk inam sisteminin mərkəzi sakral obrazı olan Tanrının epik transformasiyası hesab olunurdu. Onun

[18] Əlişanoğlu T. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2006, s. 257

daha sonrakı dövrlərdə də güclü bir konsentrasiya potensialına malik olmasının əsasında məhz bu cəhət dayanır. Tanrı ilkin harmoniyanın əsası olaraq təsəvvür edildiyi kimi, onun transformasiyaları olan epik qəhrəmanlar da bu missiyanı davam etdirilər. İstənilən sosial-siyasi situasiyada, istənilən vəziyyətdə türk dastanlarının epik qəhrəmanlarında bu missiyanın əlamətlərinə rast gəlmək mümkündür. Epik düşüncənin bu sxemi "Dəli Kür" romanında da vardır. Cahandar ağa hər şeydən əvvəl, müəyyən dəyərlərin daşıyıcısıdır. Onun davranışlarını bu dəyərlər şərtləndirir. Dünyanın harmoniyası ilə bağlı onun təsəvvüründə bütöv bir konseptual yanaşma mövcuddur. Cahandar ağa ailə, namus, şərəf, kişilik, qeyrət və s. barədə görüşlərini fərdi olaraq özü üçün müəyyənləşdirməmişdir. O, bu dəyərləri xalq yaddaşından hazır şəkildə qəbul etmişdir. Daha doğrusu, o bu dəyərləri özündə əks etdirən canlı xalq yaddaşının daşıyıcısıdır. Epik mətn kontekstində isə Cahandar ağa yeni dünyada qəhrəmanlıq əşirətinin prinsipləri ilə yaşayan epik qəhrəmanın özüdür. Yaşadığı zaman onun içində gəzdirdiyi mənəvi harmoniya haqqında təsəvvürlərə tamamilə ziddir. Əksər qarşıdurmaların, ziddiyyətlərin kökü buradan qaynaqlanır.

Bu yarımfəsildə Cahandar ağa obrazı epik qəhrəmanın doğuluşu, böyüməsi, qüdrəti, missiyası, yardımçı vasitələr kimi ənənəvi modellər üzrə təhlil olunmuşdur.

Cahandar ağa obrazının epik qəhrəman arxetipinə söykəndiyini sübut edən cəhətlərdən biri də onun davranışlarının yaşadığı dövrün, daha dəqiq ifadə etsək, yeniləşən zamanın prinsipləri baxımından "anormal" olmasıdır. Məsələn, Cahandar ağanın başqasının arvadını qaçırması motivi belə əxlaqi anormanın kulminasiya məqamıdır. Lakin şifahi epik əxlaqi müstəvi üçün bu, normadır. Azərbaycan dastanlarında bu barədə olan çoxsaylı qızqaçırma motivləri, Koroğlunun müxtəlif gözəlləri qaçıraraq Çənlibelə gətirməsi və s. xatırlatmaq olar. S.Rzasoy yazır ki, "Çənlibel cəmiyyətdən təcrid olunmuş yer kimi ritual məkanıdır… Çənlibeldə iki tip qəhrəman var: kişilər və qadınlar. Uşaq, qoca, baba, nənə, bacı, qardaş və s. yoxdur. Bu, real cəmiyyət yox, real cəmiyyətin fövqündə təşkil olunmuş şərti cəmiyyət – ritualdır. Bu toplumda bütün dəlilər Koroğlunun paradiqması, bütün qadınlar Nigar xanımın paradiqmasıdır. Eposda

bütün hərəkətlər bir hərəkət invariantını özündə əks etdirir: Koroğlunun igidliklə evlənməsi. Bütün səfərlər qızların gətirilməsi və toyla başa çatır. Toy mərasimdir və bu, eposun ritual arxetipində gənclərin kişi statusuna keçirilməsi ritualının durduğunu göstərir. Hər bir səfər konkret bir dəlinin toyu ilə başa çatmaqla onu igid kimi təsbit edir. Eposun funksional strukturunun təhlili göstərir ki, kişi statusuna keçirilmə iki aktla müəyyənləşir: igidlik və evlənmə" [19].

Cahandar ağanın qeyri-adi xarakter və keyfiyyətə malik olduğunu H.Qasımov da vurğulayır: "İsmayıl Şıxlı Cahandar ağa xarakterində stixiyanı, insani cəhətləri qabarıq ifadə etdiyinə görə bütün rakurslardan dəyərini saxlayır və marağa səbəb olur ...Cahandar ağa nadir xarakterdir, qeyri-standart obrazdır, "ülgüsü" özündə olan bədii surətdir"[20].

Beləliklə, yuxarıda qeyd olunanları ümumiləşdirərək belə qənaətə gəlirik ki, Cahandar ağa obrazı bütün əlamətləri, düşüncəsi, sahib olduğu mənəvi-əxlaqi dəyərləri, davranış stereotipləri və s. etibarilə türk epik qəhrəmanının yazılı ədəbiyyata bədii transformasiyasıdır.

Üçüncü fəslin ikinci yarımfəsli "*Cahandar ağa obrazının linqvopoetik təhlili kontekstində etnik yaddaş formulları*" adlanır. Tədqiqat göstərir ki, İ.Şıxlının yaratdığı möhtəşəm Cahandar ağa obrazının folkor formulları, onların nitq vahidlərində əks olunma mexanizmləri baxımından araşdırılma imkanları da vardır. Bu, bizə Cahandar ağa obrazının türk eposlarındakı epik qəhrəmanlarla, xüsusən Koroğlu obrazı ilə əlaqələrini linqvistik təhlil müstəvisində nəzərdən keçirməyə imkan verir.

"Dəli Kür" romanı zəngin xalq danışıq üslubuna əsaslanan bir əsər olduğu üçün dilçilik baxımından da dəfələrlə təhlilə cəlb olunmuşdur. Lakin bizim burada məqsədimiz diqqəti Cahandar ağa obrazının timsalında epik formulların müəyyənləşdirilməsinə, yəni Cahandar ağa obrazı ilə epik qəhrəman arasındakı əlaqələrin linqvopoetik təhlilinə yönəltməkdir.

---

[19] Rzasoy S. Oğuz mifologiyası (metod, struktur, rekonstruksiya). Bakı: Nurlan, 2009, s. 314-315

[20] Qasımov H. Ləyaqət simvolu // "Xalq qəzeti", 25 avqust 1995-ci il

Romanın dilinin şifahi xalq ədəbiyyatına məxsus elementlərlə zəngin olması, atalar sözləri, bayatılar, müxtəlif paremilər və s. ilə yüklülüyü müəllifin romanın dilini zənginləşdirmək üçün həyata keçirdiyi texniki bir proses, ədəbi bir priyom deyildir. Əsərin dilinin folklora məxsus dil-üslub xüsusiyyətləri ilə zənginliyi, ilk növbədə, müəllifin özünün nəsr təfəkkürünün folklor təfəkkürünə əsaslanmasından irəli gələn bir məsələdir.

"Dəli Kür" romanının folklor dil-üslub xüsusiyyətləri barədə N.Cəfərov və Ə.Hüseynov[21], Q.Kazımov[22], Ə.Tanrıverdi[23] və b. maraqlı fikirləri vardır. Bundan əlavə, 60-70-ci illər Azərbaycan nəsri və folklor probleminin müxtəlif aspektlərinə həsr olunmuş çoxsaylı araşdırmalarda bu və ya digər baxımdan "Dəli Kür"ün dili, xüsusən bu dilin folklor dil-üslub xüsusiyyətlərinə bağlılığı geniş təhlil olunmuşdur. "Dəli Kür"ün dili ilə bağlı araşdırmalar içərisində Ə.Tanrıverdinin monoqrafiyasını xüsusi olaraq qeyd etmək lazımdır. Bu monoqrafiyada təhlil linqvistik və poetik istiqamətləri özündə birləşdirməklə, romanın dili barədə dolğun təsəvvür yaradır. Monoqrafiyanın əsas məziyyəti kimi onu da qeyd etmək yerinə düşərdi ki, romanın dili üzərində araşdırmalar aparılarkən ideya-məzmun baxımından təhlillərə də geniş yer verilmiş, əsər bütövlükdə professional filoloji təhlilin predmetinə çevrilmişdir.

Romandakı dialoqlarda Cahandar ağanın nitqinin lakonikliyi və kəsərliliyi xalq yaddaşında daşlaşmış formullara əsaslanır. Bir dialoqun sonunda Cahandar ağanın Molla Sadığa "Dınqıra süzən qurumsaq!" deməsi artıq konativliyin kulminasiya məqamı kimi özünü göstərir.

Linqvopoetik aspektdən "Dəli Kür" romanı üzərində elmi müşahidələr, xüsusən romanın əsas qəhrəmanı Cahandar ağa obrazının bu yöndən təhlil predmetinə çevrilməsi bir daha göstərir ki, ən kiçik nitq vahidlərindən tutmuş iri mətnlərə qədər romandakı nitq bütövləri etnik-milli yaddaşın ayrı-ayrı folklor janrlarında üzə çıxan

---

[21] Cəfərov N. Hüseynov Ə. Ünvansız məktub / Tənqid və ədəbi proses. Bakı: Nurlan, 2009.

[22] Kazımov Q. «Dəli Kür»ün dili / Sənət düşüncələri (məqalələr, rəylər, xatirələr, müsahibələr, çıxışlar). Bakı: 1997.

[23] Tanrıverdi Ə. «Dəli Kür» romanının poetik dili. Bakı: «Elm və təhsil, 2012,

müxtəlif formullara gedib çıxır. Cahandar ağanın bir bədii obraz olaraq türk epos təfəkküründəki epik qəhrəman obrazının bədii transformasiyası olması da həm təhkiyə mətnlərdə, həm də obrazın öz nitqində (dialoq və monoloqlarda) əyaniləşir.

Dissertasiyanın "**Nəticə**" hissəsində əldə olunmuş elmi qənaətlər ümumiləşdirilmiş və tezislər şəklində ifadə olunmuşdur. Qeyd edilmişdir ki, müasir Azərbaycan romanlarında epos mədəniyyəti aşağıdakı səviyyələrdə özünü biruzə verir:

1.Klassik Azərbaycan eposları müasir Azərbaycan romanlarının mövzu söykənəcəyi kimi çıxış edir.

2.Klassik Azərbaycan epos dili müasir Azərbaycan romanlarında ritmik dilin qaynağına çevrilir.

3.Hadisə və faktlara münasibətə roman qəhrəmanının mövqeyi epos qəhrəmanının mövqeyi ilə müəyyən qədər üst-üstə düşür.

4.Azərbaycan eposları müasir Azərbaycan romanlarının rekonstruksiya xammalı kimi çıxış edir.

"Dəli Kür" romanının yarandığı etnik-mədəni mühit tarixi kökləri etibarilə oğuz türklərinə bağlanır; "Dəli Kür" romanında təcəssüm olunan epos poetikası ənənə etibarilə oğuz epos poetikasına söykənir; "Dəli Kür" romanının poetik strukturu məhz oğuz qəhrəmanlıq eposu olan "Kitabi-Dədə Qorqud" və onun sonrakı dövrdə davamı olan "Koroğlu" poetikası ilə səsləşir; bu səsləşmə epos-roman münasibətlərini əhatə edən mürəkkəb sistem şəklində özünü göstərir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Türk epos təfəkkürü 60-70-ci illər Azərbaycan romanının ideya-estetik mənbəyi kimi // "Dədə Qorqud" toplusu, II (43), 2012, s. 44-51

2. "Dəli Kür" romanı: tarixlə folklorun epik məkanda görüşü // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XXXIX buraxılış, 2012, s. 147-152

3. Cahandar ağa obrazının linqvopoetik təhlili kontekstində etnik yaddaş formulları // "Dədə Qorqud" toplusu, I (46), 2013, s. 103-109

4. İsmayıl Şıxlı: şəxsiyyətin folklor tipologiyası (epos məntiqindən "Dəli Kür"ə aparan yollar) // Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, XLII buraxılış, 2013, s.163-170

5. Эпическое мышление в романе «Кура неукратимая» Исмаила Шыхлы // Международная научно-теоретическая конференция «Современные тренды языкознания и тюркский мир», Казахский Национальный Университет им. Аль-Фараби, Алматы, 25-26 апреля 2013, с. 255-259

6. Архетип эпического героя образа Джахандар-аги в романе «Кура неукратимая» // Вестник Казахского Национального Университета им. Аль-Фараби, серия филологическая, 3 (143), 2013, с. 32-38

7. Формулы этнической памяти в контексте лингвопоэтического анализа образа Джахандар-аги // Ученые записки Таврического Национального Университета им. Вернадского, серия филология, социальные коммуникации, № 2, 2013

***Тахир Муса оглы Рзаев***

# Эпическая традиция в современной Азербайджанской прозе (на основе романа Исмаила Шыхлы «Кура неукратимая»)

## Резюме

Диссертация состоит из введения, трёх глав, заключения и списка использованной литературы.

Во «Введении» говорится об актуальности темы, целях и задачах, степени разработанности, теоретических основах, научной новизне, теоретико-практическом значении, апробации исследования.

Первая глава диссертации называется «Тюркское эпическое мышление как идейно-эстетический источник современной Азербайджанской прозы». В первом параграфе этой главы исследуется проблема нового идейного поиска 70-х годов Азербайджанской прозы и фольклора, во втором параграфе изучается современный Азербайджанский роман и эпическое мышление, в третьем параграфе выявляется фольклорная типология личности Исмаила Шыхлы.

Вторая глава диссертации называется «Эпическая поэтика романа «Кура неукратимая»». В первом параграфе этой главы были исследованы элементы эпической структуры романа «Кура неукратимая» по принципам эпической поэтики, во втором параграфе изучаются вопросы исторического и эпического времени в аспекте эпической поэтики.

Третья глава исследования называется «Анализ образа Джахандар аги в контексте архетипа эпического героя». В первом параграфе этой главы проводится анализ образа Джахандар аги в контексте эпического героя, во втором параграфе определяется лингвопоэтический анализ образа Джахандар аги и выявляются формулы этнической памяти.

В «Заключении» обобщаются выдвинутые в различных главах диссертации. В конце приводится список использованной литературы.

*Tahir Musa oglu Rzayev*

**The epos tradition in modern Azerbaijanian prose (on the base of novel “Deli Kur” by Ismayil Shikhli)**

**Summary**

The dissertation work consists of the introduction, three parts, the conclusion and the list of the used literatures.

In the introduction the actuality of the investigation is shown, the information about the object and predmet, aim and duties, the scientific innovations, the theoretical-methodological bases, the theoretical and practical importance, aprobation and structure is given.

The first part is called “Turk epos thinking as the idea-aesthetic source of the modern Azerbaijanian prose”. In the first chapter of this part the problem of folklore and the new idea researches of Azerbaijanian prose of 60-70 years, in the second chapter the modern Azerbaijanian novel and epos thinking, in the third chapter the folklore typology of Ismayil Shikhli personality are investigated.

The second part of the investigation is called “The epos poetics in the novel “Deli Kur”. In the first chapter of this part the problems about the history of the epos poetics in the novel “Deli Kur” and epic times from the view point of the epos poetics principles are attracted to the investigation.

The third part of the investigation is called “The analysis of the character Jahandar aga from the view point of the epic hero archetype”. In the first chapter of this part the character of Jahandar aga is analysied from the view point of the epic hero archetype. In the second chapter the lingvo-poetics analysis with the ethnic memory formulas of Jahandar aga character are defined.

In the conclusion the results are summarized and the future directions of the investigated subject are shown.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФОЛЬКЛОРА**

---

***На правах рукописи***

**ТАХИР МУСА оглы РЗАЕВ**

# ЭПИЧЕСКАЯ ТРАДИЦИЯ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПРОЗЕ (НА ОСНОВЕ РОМАНА ИСМАИЛА ШЫХЛЫ «КУРА НЕУКРАТИМАЯ»)

**5719.01 – Фольклористика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертация на соискание научной степени доктора философии по филологическим наукам**

**Б А К У – 2013**